# “Sahibsiz sanılan nəğmələrimiz”

Hər nəğmənin öz tarixi, öz yaddaşı var, qəlbimizə hakim kəsilən bənzərsiz nəğmələr heç də boşuna yaranmayıb. Əbəs yerə deyilməyib ki, əsl musiqinin yaşı olmur. Gözəl musiqilər daim yaşayır və yaşayacaq. Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayevanın “Sahibsiz sanılan nəğmələrimiz” kitabında da əbədiyaşar bəstələrdən bəhs olunur.

Türkiyədə “Sofa Yayınları” tərəfindən nəfis şəkildə çap olunan kitab mədəniyyətimizin və musiqimizin qədim beşiyi olan Şuşanın düşmən işğalından azad edilməsinə ərməğan olaraq hazırlanıb.

Kitabı Türkiyə türkcəsinə tanınmış yazıçı-tərcüməçi İmdad Avşar çevirib. Onun kitaba yazdığı ön sözdə haqlı olaraq vurğulanır ki, mahnılar bizim kimliyimizdir, çünki hər şey dəyişsə də, onlar dəyişməz...

İmdad Avşar bildirir ki, hər mahnının, hər xalq musiqisinin bir kədərli, hüznlü hekayəsi var: “Xalqımızın müdrikliyindən süzülmüş bu sözlərin, deyimlərin əksəriyyətinin müəllifləri bəlli olmasa da, bunlar millətin əsl irsi və sərvətidir. Bir də sözləri və bəstəsi bizə məlum olan milli musiqi əsərlərimiz var. Bu sözləri qələmə alan şairlər də, bəstələyən sənətkarlar da eynilə “anonim” xalq mahnıları və melodiyasının yaradılması zamanı keçirdiyi acı hisslər kimi böyük ağrılar çəkiblər. Təbii ki, biz onları əsla unutmamalıyıq. Qənirə Paşayeva “Sahibsiz sanılan




nəğmələrimiz”i elə bu məqsədlə yazıb. O, kitabında sanki Kərkükdə hoyrat oxuduğu üçün öldürülən şəhidlərə, Azərbaycanda “oxu tar” dediyi üçün Nargində güllələnən Mikayıl Müşfiqə, qardaşlarına “Çırpınırdın, Qara dəniz” deyə səslənən və bunun üçün öldürülən Əhməd Cavada, bu şeirə musiqi bəstələdiyi üçün ölüm ayağından dönən Üzeyir Hacıbəyliyə və başqa şair və yazıçılara ithaf edib”.

“Çırpınırdın, Qara dəniz”, “Ayrılıq”, “Əziz dostum”, “Sən gəlməz oldun”, “Neyləyim” və digər mahnılar haqqında yazıların hər birində bu bəstələrin yaranma səbəbləri, onları unudulmağa qoymayan amillər, ilk ifaçıları, həmçinin bəstəkarları haqqında məlumatlar əksini tapıb. Bu mətinləri oxuduqca bir daha əmin olursan ki, musiqi təkcə insanın psixikasına deyil, onun orqanizminə, eləcə də mənəvi aləminə təsir göstərir. İnsan xoşuna gələn hər bir musiqini ürəyi ilə dinləyir. Alimlər ta qədimlərdən musiqi səslərinin tədqiqi ilə məşğul olublar. Onlar müəyyənləşdiriblər ki, müxtəlif tonda dinlənilən musiqi insanın halına müxtəlif cür təsir göstərir. Onu həyəcanlandırır, kədərləndirir, sakitləşdirir, sevindirir və s.

Qənirə Paşayeva musiqilərimiz və mahnılarımıza sahib çıxarkən millətə yol göstərən sözlərin yazarlarını, nəğmələri ilə bu millətin yaddaşında ölməz izlər buraxan bəstəkarları rəhmətlə yad etməyin vacibliyini söyləyir. Bu millət üçün hər bir əzaba qatlanan şair və bəstəkarların əsərlərinin onların adları çəkilmədən oxunmasını vəfasızlıq kimi dəyərləndirir. “Sahibsiz sanılan nəğmələrimiz” kitabı bizə dilimizdən düşməyən bu mahnıların söz və musiqi müəlliflərini yenidən yada salır.

Yaşanılan hər an vaxta, hər vaxt günə, günlər aya, aylar da ilə çevrilərək tarixə dönür. Dünən yaddaş, bu gün reallıq, gələcək isə ümid yerimizdir. Dünəni tarixə çevirərək bu gün bizə Qələbə sevinci yaşadanlar əbədi tarix yaradanlar və yazanlardır. Bu tarixi əbədiləşdirən bir amil də var ki, o da səs yaddaşıdır. “Sahibsiz sanılan nəğmələrimiz” kitabı da sahib olduğumuz bəstələrimizə, mahnılarımıza, səs saxlancımıza ucaldılan söz heykəlidir.

Mədəniyyət .- 2022.- 14 oktyabr.- S.6.